**Bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər müzakirə olunmuşdur**

May ayının 1-də Milli Məclisin növbəti iclası keçirilmişdir. İclasda əvvəlcə cari məsələlərə baxılmış, sonra Şuşa şəhərinin işğalının 20 illiyi ilə bağlı məsələ geniş müzakirə olunmuşdur. Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda müvafiq anma mərasimlərinin keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin müvafiq sərəncamının əhəmiyyəti xüsusi vurğulanmışdır. Müzakirələrin sonunda bəyanat qəbul edilmişdir.

İclasın gündəliyinə «Əhalinin sağlamlığının qorunması haqqında», «Mühasibat uçotu haqqında» qanunlara, eləcə də Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə və Vergi Məcəlləsinə əlavələr və dəyişikliklərin edilməsi barədə qanun layihələrinin müzakirəsi daxil edilmişdir. Qeyd olunan qanun layihələri birinci oxunuşda səsverməyə qoyularaq qəbul olunmuşdur.